# AZƏRBAYCANDA HƏSSAS ƏHALİ QRUPLARININ SOSİAL MÜDAFİƏSİ

Bakı - 2023

**Tərtibçi, ön sözün müəllifi və redaktor:**
**Almaz Zeynalova,**
*"Şəhid Ailələrinə Sosial Dəstək İctimai" Birliyinin sədri, layihə rəhbəri*

***"Azərbaycanda həssas əhali qruplarının sosial müdafiəsi". Maarifləndirici-kütləvi toplu.***
***Bakı, «İMZA» Nəşrlər Evi, 2023, 72 səh.***

*Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Şəhid Ailələrinə Sosial Dəstək İctimai" Birliyi tərəfindən reallaşdırılan "Həssas əhali qruplarının – müharibə iştirakçılarının sosial müdafiəsi və dəstək tədbirləri ilə bağlı ictimai maarifləndirmə" adlı dördaylıq layihə çərçivəsində hazırlanaraq nəşr edilib.*

*Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirmir.*

**İSBN 978-9952-37-440-1**

**© "Şəhid Ailələrinə Sosial Dəstək" İctimai Birliyi, 2023**

## AZƏRBAYCANDA HƏSSAS ƏHALI QRUPLARININ SOSIAL MÜDAFIƏSI VƏ DƏSTƏK TƏDBIRLƏRI

Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasını, cəmiyyətin həyatında vətəndaşlara bərabər imkanlar yaradılmasını nəzərdə tutan iqtisadi, sosial və hüquqi dövlət təminatı sistemi olaraq sosial cəhətdən həssas əhali qruplarının – I və II Qarabağ müharibəsi iştirakçılarının, şəhid və qazi ailələrinin üzvlərinin maraq və mənafelərinə cavab verən, onların sosial problemlərinin aradan qaldırılması, həmçinin, ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarını yaradılmasını təmin edən rəsmi xidmətlərin sosial müdafiə sisteminin tərkib hissəsi olaraq geniş kütlələrə tanıdılmalıdır. Hər bir vətəndaş kimi, həssas qruplara aid edilən şəxslər də öz arxalarında güclü sosial təminatlar verən dövlətin olduğunu, onun geniş imkanlarını tanımalı, onlardan yararlanmalıdır. Sosial yönümlü siyasət həyata keçirən Azərbaycan Respublikasının əsas humanist prinsiplərindən biri də budur.

Son üç ildə Covit-19 koronavirus pandemiyasının yayıldığı, dünyada iqtisadi-sosial problemlərn, geohumanitar böhranların dərinləşməsinə rəğmən, respublikamızda əksər istiqamətlər üzrə inkişaf dinamikasının artmasını, eləcə də 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuzun qazandığı tarixi qələbədən sonra, ölkəmizdə bütün sosial proqramların icrası, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial cəhətdən həssas əhali qruplarının dövlət qayğısı ilə əhatə olunması, əmək hüquqlarının müdafiəsi,

aktiv məşğulluq tədbirlərinin təşkili, pensiya və sosial-təminat, tibbi-sosial ekspertiza sistemlərinin təkmilləşdirilməsi yönündə islahat tədbirlərin uğurlarını geniş əhali qruplarına tanıtmaq vacibdir..

Respublikamızda cəmiyyətin həssas kateqoriyasına aid edilən qruplarının sosial xidmət və təminat hüquqları var: onlara əsasən hər bir vətəndaş müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat almaq hüququna malikdir. Son 30 ildə əhaliyə sosial xidmətlərin göstərilməsi sahəsində dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər ölkənin sosial xidmət sisteminin inkişafının təmin edilməsi məqsədilə dövlət büdcəsindən davamlı maliyyə vəsaiti ayrılası, sosial xidmətlərlə bağlı münasibətləri tənzimləyən bir sıra normativ hüquqi aktlar qəbul edilməsi, ağır məişət şəraitində yaşayan şəxslərə sosial xidmət göstərilməsi sahəsində rəsmi siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarının müəyyən edilməsi və bu sahədə yaranan münasibətlərinin tənzimlənməsi məqsədilə qəbul edilən "Sosial xidmət haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" "Şəhid ailələri haqqında" Azərbaycan Respublikasının digər qanunların geniş ictimaiyyətə çatdırılma-

sında İKT texnologiyalarından yararlanmaq çox məntqli addımdır..

Azərbaycan dövlətinin sosial cəhətdən həssas əhali qruplarına münasibətdə sosial siyasətinin əsas istiqamətlərindən birini onların cəmiyyətin digər üzvləri ilə bərabər şəkildə informasiya axtarmasını, qəbul edilməsini və ötürə bilməsini təmin edən şəraitin yaradılması təşkil edir. Son illər ərzində müvafiq beynəlxalq təşkilatlar və aidiyyəti dövlət qurumların maliyyə dəstəyi ilə qeyri-hökumət təşkilatları tərəfindən sosial cəhətdən həssas əhali qruplarına ünvanlanmış sosial müdafiəsi və dəstək tədbirləri çərçivəsində ictimai maarifləndirmə fəaliyyətini daha da gücləndirilməsi bir vəzifə olaraq qəbul edilir.

Azərbaycan dövlətinin tərəfindən qəbul edilən konvensiyalarda məlumatlandırma tədbirlərinin həyata keçirilməsi öhdəliyi müəyyən edilmişdir. Konvensiyaların, beynəlxalq sənədlərin tələbinə görə xüsusi qayğıya ehtiyacı olan insanlar məlumatlandırılmalı, onların hüquqlarına, şərəf və ləyaqətlərinə, bacarıqlarına və verə biləcəyi töhfələrə hörmət hissi gücləndirilməli, onlar haqqında məlumat xarakterli tədbirlər həyata keçirilməlidir. Üzv ölkələr kütləvi informasiya vasitələri ilə ictimai məlumatlandırma və əlilliyi olan şəxslərin, eləcə də cəmiyyətin digər üzvlərinin konvensiya və burada əks olunan hüquqlara dair məlumatlandırılması istiqamətində tədbirlər həyata keçirməlidirlər. "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda hüquqi maarifləndirmə işinin genişləndirilməsi və insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə insan hüquqlarının müxtəlif kateqoriyaları

üzrə (mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar) əhalinin müxtəlif qrupları, o cümlədən, xüsusi qayğıya ehtiyacı olan insanlar, əlilliyi olan şəxslər üçün hüquqi maarifləndirmə sahəsində tədbirlərin görülməsi öz əksini tapmışdır.

İnternet, yeni media, sosial şəbəkələr, eləcə də "Fərd-dən-fərdə məlumatları ötürməklə" formasından yararlanaraq, ölkəmizin həssas əhali qruplarının sosial müdafiəsi və dəstək tədbirləri ilə bağlı ictimai maarifləndirmənin təşkili yolu ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və I Vitse-Prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında dövlət, eyni zamanda Heydər Əliyev Fondu kimi rəsmi təşkilatların və ictimai qurumlar tərəfindən bu istiqamətlərdə həyata keçirilən proqramların, fəaliyyətlərin, layihələrin, sosial siyasətin təbliğ edilməsi. Sosial dövlət quruculuğu, xalq-iqtidar vəhdəti, vətəndaş cəmiyyəti və hökümət münasibətlərində həssas qrupa daxil olan şəxslərin, onların ailə üzvləri və yaratmış olduqları ictimai birlikləri cəlb etməklə, ölkənin daxili humanist sosial siyasətin incəlikləri, təbliğiatında ən yeni İKT texnologiyalarından, sosial şəbəkə alətlərindən yararlanmaqla, həmin əhali qruplarının sosial xidmətlər barədə məlumatllılıq səviyyəsinin artırılmasına ehtiyac duyulur. Qarabağın dirçəlişi üçün qaçqın və məcburi köçkünlərə mənəvi dəstək vermək, həssas qruplar sayılan qazi, əlil, şəhid ailələri və onların üzvlərinin dövlətimizin sosial siyasətini dəstəkləmək, motivasiya xarakterli fəaliyyətlər həyata keçirməklə hər hansı mənfi təsirlərin qarşısını almaqdan ötrü dövlətçilik ideologiyasını gücləndirilməsi vacibdir. İnternet, TV, KİV, yeni media və sosial

şəbəkələr, elektron kitabxana, başqa informasiya platformalarında sosial xidmətlər haqqında məlumatların tanıtımlarını hazırlamaq, onları yayımaq, sadə dildə yazılmış təbliğat xarakterli kağız və e-nəşrlərin hazırlanması aktual məsələdir. Sosial siyasətimizə aid həssas istedadlı fərdlərin və sosial müdafiəyə, cəmiyyətə inteqrasiya olunmasına ehtiyacı olanları dəstəkləyən tanınmışların iştirakı ilə ictimai mesajlar ötürüləcək silsilə TV verilişlərin yayımını təşkil etmək, elektron nəşrlər və şəbəkə məhsulları, sosial şəbəkələrdə bu mövzuda Virtual məlumat və resurs mərkəzinin yaradılması, qazilər, şəhidlər və Qarabağ veteranlarının, iştirakçılarının igidliklərinə, qəhrəmanlıqlarına həsr olunmuş real/onlayn aksiyaların təşkili, onun nəticəsi olaraq kağız/elektron toplunun nəşri, e-nəşrin hazırlanaraq İnternetdə yerləşdirilməsi/yayımı, maarifləndirici kampaniyaların təşkili ilə qoyulan məqsədə çatmaq əsas vəzifələrdəndir.

Bu baxımdan da "Şəhid Ailələrinə Sosial Dəstək" İctimaİ Birliyi, yarandığı gündən etibarən, dövlətimizin bu sahədə siyasətinə, proqram və layihələrinə dəstək xarakterli fəaliyyətləri ilə tanınıb. Növbəti mərhələdə həyata keçirdiyi layihə çərçivəsində aşağıdakı fəaliyyət növlərindən yararlanır:

- Ölkəmizin həssas əhali qruplarının sosial müdafiəsi və dəstək tədbirləri ilə bağlı ictimai maarifləndirmənin təşkili yolu ilə həyata keçirilən fəaliyyətin təbliğ edilir;
- KİV, İKT, İnternet, sosial şəbəkələr, yeni media, onlayn TV, bloqqerlik və elektron nəşrlər vasitəsi ilə həssas əhali qruplarının sosial xidmətlər barədə məlumatlılıq səviyyəsinin artırılır;

- Həssas əhali qruplarının sosial müdafiəsi və dəstək tədbirləri ilə bağlı informasiya mühitinin yaradılması istiqamətində ölkə daxilində və beynəlxalq aləmdə real/virtual aksiyaların təşkil edilir;

- Qarabağ Vətən müharibəsi iştirakçıları, qaziləri, şəhid ailələrinin üzvlərinə göstərilən dövlət qayğı və sosial müdafiə Qarabağın erməni sakinlərinə ideoloji təsir vasitəsi kimi təbliğat vasitəsinə çevirməklə Qarabağın Dirçəlişi Proqramının həyata keçirilməsi istiqamətində dövlət başçımızın siyasətinə - həssas qrupların, veteran və əlillərin müştərək dəstəyi kimi tanıdılır;

- Son müharibə iə əlaqədar əlilliyi olan şəxslərin hüquqları və onların təmin olunması ilə bağlı dövlət səviyyəsində görülən işlərin kütləvi informasiya vasitələri və sosial şəbəkələr vasitəsilə təbliğat işinin genişləndirilmiş formada aparılılır;

- Həssas qrupların və xüsusi qayğıya ehtiyacı olan şəxslərin psixoloji-mənəvi inkişafı ilə bağlı kreativ xidmətlərinin təşkili, müharibə qəhrəmanları, iştirakçıları, şəhidlərinin tarixi rolunu cəmiyyətdə özünüifadə və sosial uyğunlaşmanın formatı kimi inkişaf etdirilməsinə yardımşı olur;

- Həssas qrupların və xüsusi qayğıya ehtiyacı olan şəxslərin və şəhid ailələrin üzvlərinin, əlillərinin cəmiyyətə inteqrasiyası üçün informasiya mühitinin yaradılması üçün innovativ və kreativ proqramlar, aksiyalar reallaşdırılır;

- Sosial xidmət sifarişi çərçivəsində həssas əhali qruplarının sosial müdafiəsi və dəstək tədbirləri ilə bağlı ictimai maarifləndirmənin təşkili yolu ilə dövlət tərəfindən bu sahədə həyata keçirilən fəaliyyəti təbliğ ediləcək və o

əhali qruplarının sosial xidmətlər barədə məlumatllılıq səviyyəsi artırılır;

- Bu istiqamətdə kütləvi informasiya vasitələrində, xüsusən İnternet portallar, yeni media, onlayn/oflayn TV, video yayım şəbəkələri və sosial platformalarda, ənənəvi televiziya kanallarında vasitəsilə geniş təbliğat-təşviqat kampaniyasının təşkil edilir.

Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin 2022-ci ildəki maliyyə müsabiqəsi tərəfindən dəstəklənən, "Şəhid Ailələrinə Sosial Dəstək" İctimaİ Birliyi tərəfindən həyata keçirilən "Həssas əhali qruplarının – müharibə iştirakçılarının sosial müdafiəsi və dəstək tədbirləri ilə bağlı ictimai maarifləndirmə" layihəsi çərçivəsində də maraqlı fəaliyyət istiqamətlərində təbliğat və maarifləndirmə işləri həyata keçirilir.

İnternet, yeni media, sosial şəbəkələr, eləcə də "Fərddən-fərdə məlumatları ötürməklə" formatından yararlanaraq ölkəmizin həssas əhali qruplarının –şəhid ailələri, qazilər, veteranlar və onların ailə üzvlərinin sosial müdafiəsi və dəstək tədbirləri ilə bağlı ictimai maarifləndirmənin təşkili yolu ilə həyata keçirilən fəaliyyətin təbliğ edilməsi.

Ənənəvi, yazılı və elektron KİV – telekanallar, İnformasiya-Komunikasiya Texnologiyaları, İnternet, sosial şəbəkələr, yeni media, onlayn TV, bloqqerlik, kağız və elektron nəşrlər vasitəsi ilə həssas əhali qruplarının - şəhid ailələri, qazilər, veteranlar və onların ailə üzvlərinin sosial xidmətlər barədə məlumatllılıq səviyyəsinin artırılması.

Həssas əhali qruplarının – şəhid ailələri, qazilər, veteranlar və onların ailə üzvlərinin sosial müdafiəsi və dəstək

tədbirləri ilə bağlı informasiya mühitinin yaradılması istiqamətində ölkə daxilində və beynəlxalq aləmdə, İnternet, sosial şəbəkələr, videoplatformalar vasitəsilə real/virtual aksiyaların təşkili.

Qarabağ Vətən müharibəsi iştirakçıları, qaziləri, şəhid ailələrinin üzvlərinə göstərilən dövlət qayğı və sosial müdafiə imkanlarının, Qarabağın erməni sakinlərinə ideoloji təsir vasitəsi kimi təbliğat vasitəsinə çevirməklə, Qarabağın Dirçəlişi Proqramının həyata keçirilməsi istiqamətində dövlət başçımızın siyasətinə QHT-lərin, həssas qrupların, veteran və əlillərin müştərək dəstəyi kimi tanıdılması.

5) Son müharibə ilə əlaqədar şəhid ailələri, qazilər, veteranlar və onların ailə üzvlərinin hüquqları və onların təmin olunması ilə bağlı dövlət səviyyəsində görülən işlərin kütləvi informasiya vasitələri və sosial şəbəkələr vasitəsilə təbliğat işinin genişləndirilmiş formada aparılması.

Həssas qrupların və xüsusi qayğıya ehtiyacı olan şəxslərin psixoloji-mənəvi inkişafı ilə bağlı kreativ xidmətlərin təşkili, müharibə qəhrəmanları, iştirakçıları, şəhidlərinin tarixi rolunu cəmiyyətdə özünüifadə və sosial uyğunlaşmanın formatı kimi inkişaf etdirilməsinə yardım etmək;

Həssas qrupların və xüsusi qayğıya ehtiyacı olan şəxslərin, qazi və şəhid ailələrin üzvlərinin, veteranların cəmiyyətə asan inteqrasiyası üçün informasiya mühitinin yaradılması üçün innovativ və kreativ proqramların, aksiyaların işlənməsi, həyata keçirilməsi.

Həssas əhali qruplarının sosial müdafiəsi və dəstək tədbirləri ilə bağlı ictimai maarifləndirmənin təşkili yolu ilə dövlət tərəfindən bu sahədə həyata keçirilən fəaliyyəti təbliği: bu əhali qruplarının sosial xidmətlər barədə məlu-

matllılıq səviyyəsi artırılması.

Bu istiqamətdə kütləvi informasiya vasitələrində, xüsusən İnternet portallar, yeni media, onlayn/oflayn TV, rəqəmsal nəşrlərin hazırlanması, yayımı, kütləvi kağız kitab və bükletin çap edilməsi, ictimai təqdimatı, yayımı, elektron kitabxana, video yayım şəbəkələri və sosial platformalarda, ənənəvi televiziya kanallarında vasitəsilə geniş təbliğat-təşviqat kampaniyalarının təşkili.

Layihə fəaliyyəti, görülən işlər, işlək mexanizmi, vəzifələri, işinin məzmunu və üsulları barədə ictimaiyyətə mütəmadi geniş məlumatların verilməsi. KİV, mətbuat, İnternet portalları, elektron kitabxana, yeni media və onlayn/oflayn TV-lər və sosial şəbəkə resurslarında yerləşdirilmsi və azad yayımının təşkili. Hesabatların hazırlanması, təqdimi.

Həssas qrupa aid edilən müharibə iştirakçıları, eləcə də qazilər, onların ailə üzvləri və şəhid ailələri, şəhid anaları və xanımları, yeniyetmələr, gənclər, tələbələr, əsgərlər hərbiçilər, psixologiyası üzrə mütəxəssislər, pedaqoqlar, sosioloqlar, yazıçı və publisitlər, yazılı və elektron KİV nümayəndələri,  bloqer və İnternet – sosial media, qlobal şəbəkə istifadəçilərinə ünvanlanmış layihə cəmiyyətin bütün sferalarını, eləcə də virtual alətlər vasitəsilə dünyada yaşayan soydaşlarımızı əhatə edəcək. Qəhrəmanlıq və vətənpərvərlik mövzusunda geniş təsəvvürləri və sosial təcrübələri olan şəhid anaları - xanımları, yaradıcı insanları, həm də öz mədəni səviyyələrini, Vətənə sevgilərini zənginləşdirmək istəyən gənc hərbiçilər layihədən faydalanacaq. Bütövlükdə mənəvi dəyərlərin gənc nəslə ötürülməsini nəzərdə tutduğu üçün layihə geniş əhatə dairəsinə

malikdir. İdeoloji-psixoloji, milli-mənəvi dəyərlərin, qəhrəmanlıq-vətənpərvərlik ruhunda ideoloji-təbliğati əsərlər İnternet və sosial şəbəkələrdə, KİV-də, xüsusən də yeni nəsil nümayəndələri arasında tanıdılmasına ehtiyac var. Bu istiqamətdə müxtəlif səpkili materialların yayılması, elektron resurslarında daha geniş istifadəsi gənclərdən asılıdır. İgidlik, qəhrəmanlıq, vətənpərvərlik baxışlardan ibarət düşüncə nümunələri - əsgərlərə ünvanlanmış ideoloji-publisistik fikir məhsulları gənclərin zövqünü formalaşdıran, yeni nəsli tərbiyə edən mühüm humanitar düşüncə istiqaməti sayılmalıdır. Əldə olunan nəticələrdən hərbiyönümlü təhsil ocaqlarının fəaliyyətində və gənclərlə işləyən dövlət, QHT, vətəndaş cəmiyyəti qurumları tərəfindən ideoloji-təbliğat işlərində istifadə oluna bilər.

Fəaliyyətlər nəticəsində gözlənilən nəticələr, onların qiymətləndirilmə meyarları və davamlılığı aşağıdakılarddlr:

- Azərbaycan Respublikasında dövlət sosial siyasət və həssas qruplarına dövlət qayğısı, imkanlarının mahiyyətinin təbliğ olunması, yeni maarifçilik aksiyaların həyata keçirilməsi nəticəsində geniş ictimaiyyət, xüsusilə də həssas qruplara aid edilən insanlar arasında məlumatlandırma daha da yüksələcək;

- Həsas qrupların nümayəndələri, eləcə də Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda aparılan mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunələri göstərərək şəhid olmuş şəxslərin ailə üzvlərinin və öz sağlamlıqlarını itirmiş şəxslərin hüquqlarının müdafiəsi istiqamətində materialların hazırlanması və təşviqat kampaniyasının aparılması nəticə-

sində onların bu sahədə məlumatlılıq səviyyəsi daha da artacaq;

- Sosial xidmət sifarişi çərçivəsində həssas əhali qruplarının sosial müdafiəsi və dəstək tədbirləri ilə bağlı ictimai maarifləndirmənin təşkili yolu ilə dövlət tərəfindən bu sahədə həyata keçirilən fəaliyyəti təbliğ ediləcək və o əhali qruplarının sosial xidmətlər barədə məlumatllılıq səviyyəsi artırılacaq;

- Kütləvi informasiya vasitələri və sosial şəbəkələr vasitəsilə təbliğat işinin aparılması nəticəsində cəmiyyətdə həssas insanlar, eləcə də əlilliyi olan şəxslərin hüquqlarının təmin olunması sahəsində dövlət səviyyəsində görülən işlər barədə ətraflı və pozitiv fikir formalaşacaq.

- Bu sahədə maariflənmə və məlumatlanma istiqamətində yeni kitab, elektron nəşr, TV verilişlər, sosial media məhsulları, video-vizual materiallar, İnternetdə məlumatlandırma və şəbəkə resursları yaradılacaq.

- QHT layihəni yerinə yetirəndən sonra da bu istiqamətdə fəaliyyətini davam etdirərək cəmiyyətin mərhəmətə ehtiyacı olan həssa qruplarına xidmət göstərəcək.

Şəhid ailələri ilə işləyən "Şəhid Ailələrinə Sosial Dəstək" İctimaİ Birliyi həssas qruplarla mütəmadi işləyir, xeyriyyə aksiyaları, yardımlaşma, milli-mənəvi dəyərlərimizin təbliği, qəhrəmanlıq-vətənpərvərlik mövzusuda mateialların nəşri istiqamətində bir sıra layihə həyata keçirib. Təşkilatda fəaliyyət göstərən üzvlərin əksəriyyəti sosial və yaradıcı insanlar, yazarlar, pedaqoqlar, tanınmış imza sahibləri və milli dəyərlər sahəsində işləyən şəxslərdir.

Tərəfdaş QHT-lərlə həyata keçirdiyi layihələr, bu vaxta qədərki ictimai-sosial fəaliyyətləri Azərbaycan ictima-

iyyətində kifayət qədər dəyərləndirilib, orta və ali təhsil ocaqları, dövlət və ictimai qurumlar, sosialyönümlü QHT-lər tərəfindən hər zaman faydalanılır. Bu qurumlar əvvəllər də təşkilatla sıx əlaqədə olmuş, yeni layihəmizdə də bir çox töhfələr verəcəklərinə inanırıq.

Həssas qruplarla sosial mövzudakı bu layihənin geniş kütlələri əhatə etməsi, təbiği və ictimaiyyətə çatdırılması işi dəqiq işlənmiş media-plan vasitəsilə reallaşdırılacaq. Layihənin təqdimi və təbliğinə xüsusi önəm veriləcəkdir. Ölkə daxilində və dünyada Azərbaycanın möhtəşəm Qarabağ Zəfəri ilə bağlı həqiqətlərin, yeni ədəbi əsərlərin geniş yayılmasına səbəb olması üçün səylər göstəriləcək. Qlobal və lokal İnternet resurslarında, sosial mediada, saytlarda, TV və mətbuatda mövzu, eləcə də layihə haqqında rəylər, fikirlər, məqalələr çap olunacaq, debatxarakterli reportaj və süjetlər hazırlanacaqdır. Layihənin yetərincə təbiği və ictimaiyyətə çatdırılması işi düzgün işlənmiş media-plan vasitəsilə gerçəkləşdiriləcəkdir. Layihənin təqdimatına və sosial şəbəkələrdəki virtual təbligində xüsusi önəm veriləcəkdir: istər ölkə daxilində, istərsə də dünyada Azərbaycanın Qarabağ Zəfəri haqqında yaradılan yeni ədəbi nümunələrin geniş yayılmasına səbəb olacaq. Televiziya, radio, İnternet və ölkəmizin nüfuzlu mətbu orqanlarında, yeni mediada, İnternet saytlarında, İnternet TV, Fesybuk, Tvitter, İnstagram kimi sosial şəbəkələrdə həyata keçiriləcək layihə, e-nəşrlər, elektron şəbəkə resursu haqqında ekspert rəyləri, fikirlər, məqalələr çap olunacaq, müzakirə xarakterli reportaj və süjetlər hazırlanır, geniş ictimaiyyətin müzakirəsinə buraxılır ki, bu istiqamətdə maarifləndirmə işləri genişlənsin.

Bu topluda layihədən irəli gələn bir sıra maarifləndirici və tanıtım materialları həssas qruplarının nümayəndələrinin diqqətinə çatdırmaqla onlara dövlətimizin qayğı və diqqət imkanlarını tannış edirik.

**Almaz Zeynalova,**
*"Şəhid Ailələrinə Sosial Dəstək"*
*İctimaİ Birliyinin sədri,*
*layihə rəhbəri, publisist, şəhid ailəsinin üzvü*

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

**Q Ə R A R**

Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərən dövlət orqanlarının fəaliyyətinin təşkilinə dair Əlaqələndirmə Komissiyasının yaradılması barədə "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 1380 nömrəli Fərmanının 8.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin təşkilinə dair aşağıdakı tərkibdə Əlaqələndirmə Komissiyası yaradılsın:

Komissiyanın sədri Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası müdafiə nazirinin müavini;

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini;
Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini;
Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin birinci müavini;
İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini;
Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin İdarə Heyəti sədrinin birinci müavini;
Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini;
Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyəti başçısının birinci müavini;
Bakı şəhəri Pirallahı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini;
Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini;
Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyəti başçısının müavini;
Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini;
Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyəti başçısının müavini;
Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini;
Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini;
Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyəti başçısının müavini;
Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyəti başçısının müavini;

Bakı şəhəri Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavini;

Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini.

2. Komissiyaya tapşırılsın ki, vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsini həyata keçirsin.

**Əli Əsədov,**
**Azərbaycan Respublikasının Baş naziri**
**Bakı şəhəri, 2 oktyabr 2021-ci il № 289**

## AZƏRBAYCAN RESPUBLIKASININ ƏMƏK VƏ ƏHALININ SOSIAL MÜDAFIƏSI NAZIRLIYI TABELIYINDƏ SOSIAL XIDMƏTLƏR AGENTLIYI

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi sosial xidmətə ehtiyacı olan şəxslərə (ailələrə) "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş forma və növlər üzrə sosial xidmət göstərilməsi, onların sosial müdafiəsi və rifahının yaxşılaşdırılması, habelə övladlığagötürmə ilə bağlı dövlət siyasətinin və tənzimləmənin həyata keçirilməsi sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir.

Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, agentliyin nizamnaməsini, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nazirliyin normativ-hüquqi aktlarını, Azərbaycan Respublikası Əmək və əhalinin sosial müdafiəsi nazirinin əmr və sərəncamlarını rəhbər tutur.

Agentlik vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Agentliyin müstəqil balansı, əmlakı, xəzinə, bank he-

sabları, loqotipi (emblemi), Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

Müvafiq sahənin inkişafını təmin etmək, bu sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsini təmin etmək, aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, sosial xidmətə ehtiyacı olan şəxslərə (ailələrə) sosial xidmət göstərmək, onların sosial müdafiəsi və rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlər görmək, o cümlədən övladlığagötürmə sahəsində nizamnamə ilə müəyyən edilmiş vəzifələrin icrasını təmin etmək, müvafiq sahədə fəaliyyətin təkmilləşdirilməsi və şəffaflığın artırılması, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, onların elektron qaydada həyata keçirilməsi məqsədilə tədbirlər görmək, innovativ ideya və təklifləri dəstəkləmək və nizamnamədə müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək agentliyin fəaliyyət istiqamətlərinə aiddir.

Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir. Agentliyin idarəetmə orqanı İdarə Heyətidir. İdarə Heyəti 4 (dörd) nəfərdən – Azərbaycan Respublikasının Əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən və onun 3 (üç) müavinindən ibarətdir.

**Ünvanı: Bakı şəhəri, Ziya Bünyadov pr. 1965, Çinar Park biznes mərkəzi, 1-ci bina, 2-ci mərtəbə**

**Telefon: (+994 12) 525 41 30**

## AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ 2020-CI IL 30 IYUN TARIXLI 1077 NÖMRƏLI FƏRMANI ILƏ TƏSDIQ EDILMIŞDIR SOSIAL XIDMƏTLƏR AGENTLIYININ NIZAMNAMƏSI

1. Ümumi müddəalar 1.1. Sosial Xidmətlər Agentliyi (bundan sonra – Agentlik) sosial xidmətə ehtiyacı olan şəxslərə (ailələrə) "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş forma və növlər üzrə sosial xidmət göstərilməsi, onların sosial müdafiəsi və rifahının yaxşılaşdırılması, habelə övladlığagötürmə ilə bağlı dövlət siyasətinin və tənzimləmənin həyata keçirilməsi sahəsində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir. 1.2. Agentlik Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.3. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nazirliyin normativ-hüquqi aktlarını, Azərbaycan Respublikası Əmək və əhalinin sosial müdafiəsi nazirinin əmr və sərəncamlarını rəhbər tutur.

1.4. Agentlik bu Nizamnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, bey-

nəlxalq və qeyri-hökumət təşkilatları ilə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Agentlik ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə, bank hesabları, loqotipi (emblemi), Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır. 1.7. Qanuna uyğun olaraq, Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyriəmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Agentlik məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.8. Agentlik Bakı şəhərində yerləşir.

2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.2. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.3. müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.4. sosial xidmətə ehtiyacı olan şəxslərə (ailələrə) sosial xidmət göstərmək, onların sosial müdafiəsi və rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlər görmək;

2.1.5. övladlığagötürmə sahəsində bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin icrasını təmin etmək;

2.1.6. müvafiq sahədə fəaliyyətin təkmilləşdirilməsi və şəffaflığın artırılması, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, onların elektron qaydada həyata keçirilməsi məqsədilə tədbirlər görmək, innovativ ideya və təklifləri dəstəkləmək; 2.1.7. bu Nizamnamədə müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

3. Agentliyin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə qanunvericilik aktlarının, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. sosial xidmətə ehtiyacı olan şəxslərə (ailələrə) "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş forma və növlər üzrə sosial xidmət göstərilməsini təşkil etmək və həyata keçirmək;

3.1.3. müvafiq sahədə zəruri infrastrukturun və şəraitin, o cümlədən maddi-texniki bazanın yaradılması və inkişaf etdirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.4. sosial xidmətə ehtiyacı olan şəxslərin digər şəxslərlə bərabər cəmiyyətin həyatında müstəqil iştirak etməsinə imkan yaradılması üçün tədbirlər həyata keçirmək, bayramlarda və digər əlamətdar günlərdə müxtəlif həvəsləndirici tədbirlər təşkil etmək;

3.1.5. əlilliyi olan şəxslərin sosial müdafiəsinə dair təhlillər aparmaq, bədən tərbiyəsi və idmana cəlb etməklə onların beynəlxalq yarışlarda iştirakına şərait yaratmaq, əlilliyi olan şəxslər üçün ixtisaslaşdırılmış idman-sağlamlıq mərkəzlərinin yaradılması və əlilliyi olan istedadlı

şəxslərin aşkar edilməsi məqsədilə tədbirlər görmək;

3.1.6. müəyyən yaşayış yeri olmayan şəxslərin müvəqqəti sığınacaqla təmin olunması barədə qərar qəbul etmək;

3.1.7. baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların, təhsilə cəlb olunmayan 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin, ahıllıq, xəstəlik və əlilliklə əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əməkqabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslərin (ailələrin) sosial xidmət müəssisələrinə yerləşdirilməsi barədə qərar qəbul etmək;

3.1.8. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məişət zorakılığının qarşısının alınması ilə bağlı sosial tədbirlərin, o cümlədən məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi və onlara psixoloji yardım göstərilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə dövlət yardım mərkəzləri yaratmaq və qeyri-dövlət yardım mərkəzlərini akkreditasiyadan keçirmək;

3.1.9. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq insan alveri qurbanları üçün aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla yaradılan yardım mərkəzlərində olanların Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təqdimatı əsasında peşə və sosial reabilitasiyasını həyata keçirmək;

3.1.10. penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinə qəbulunu təmin etmək;

3.1.11. əlilliyi olan şəxslərin reabilitasiya müəssisələrində reabilitasiyası ilə bağlı tədbirlər görmək;

3.1.12. qanunda və digər normativ-hüquqi aktlarda nəzərdə tutulmuş hallarda vətəndaşların sanatoriya-kurort putyovkaları (yollayışları) ilə təmin edilməsini təşkil etmək;

3.1.13. uşaqlar üçün dövlət sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunlarının tabeliyindəki "Məzun evi" sosial xidmət müəssisəsində mənzillə təmin olunması üçün tədbirlər görmək;

3.1.14. baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların, müəyyən yaşayış yeri olmayan 18 yaşından yuxarı şəxslərin, habelə görmə qabiliyyəti məhdudluğu olan 5–29 yaşlı şəxslərin sosial reabilitasiyasını həyata keçirmək;

3.1.15. "Əmək veteranı" adı və vəsiqəsinin verilməsini təmin etmək;

3.1.16. dövlət proqramları əsasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin mənzillə və ya fərdi evlərlə təmin olunması üçün tədbirlər görmək;

3.1.16-1. dövlət icbari şəxsi sığorta vəsaiti hesabına müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı işlərin maliyyələşdirilməsi məqsədilə müvafiq tədbirlər görmək;

3.1.17. xüsusi avtonəqliyyat almaq üçün tibbi göstəriş əsasında əlilliyi olan şəxslərin avtomobillə təmin edilməsi

məqsədilə tədbirlər görmək;

3.1.18. fəaliyyət istiqamətinə uyğun olaraq, sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsini təşkil etmək, bu məqsədlə müsabiqələr keçirmək, müqavilələr bağlamaq və müqavilə öhdəliklərinin yerinə yetirilməsinə nəzarət etmək;

3.1.19. yetkinlik yaşına çatmayanların baxımsızlığının profilaktikası tədbirlərini həyata keçirmək, həmin şəxslərin tərbiyəsi, saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən, onların davranışına mənfi təsir göstərən, yaxud onlarla qəddar rəftar edən valideynlər və ya digər qanuni nümayəndələr barəsində fərdi profilaktik işi təşkil etmək;

3.1.20. vətəndaşlara (çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətlərin zəmanət verilmiş həcmi istisna olmaqla) müqavilə əsasında ödənişli xidmətlər göstərmək;

3.1.21. tabeliyində olan ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrinin, habelə yetkinlik yaşına çatmayanlara və onların ailələrinə sosial xidmət göstərən digər müəssisələrin fəaliyyətində sosial reabilitasiyanın müasir metodika və texnologiyalarını tətbiq etmək, onların fəaliyyətinə nəzarət etmək, həmin müəssisələrin və sosial xidmət şəbəkəsinin inkişafına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.22. valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların və onları övladlığa götürməyi arzu edən şəxslərin (Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) vahid uçotunun elektron qaydada aparılmasını təmin etmək;

3.1.23. övladlığagötürmənin əsaslandırılmasını və övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında rəy verilməsini təmin etmək;

3.1.24. Azərbaycan Respublikasının vətəndaşı olan uşaqları övladlığa götürmək istəyən əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən akkreditə edilmiş orqanın müəyyənləşdirilməsini, habelə övladlığagötürmənin ləğvinin tələb edilməsini, övladlığagötürmə sahəsində vahid nəzarəti, eləcə də əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülmüş Azərbaycan Respublikası vətəndaşı olan uşaqların həyat şəraiti ilə bağlı nəzarət tədbirlərini həyata keçirmək;

3.1.25. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.25-1. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.26. müvafiq sahə ilə bağlı innovativ layihələrdən (o cümlədən startaplardan) istifadə imkanını araşdırmaq və Nazirliyə təkliflər vermək;

3.1.27. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahədə fəaliyyətini əlaqələndirmək;

3.1.28. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"-nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi təd-

birlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında" Əsasnaməyə uyğun olaraq təşkil etmək;

3.1.29. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.30. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.31. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentliyin əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.32. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.33. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.34. Agentliyin informasiya təminatını təşkil etmək

və onun təhlükəsizliyini təmin etmək;

3.1.35. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı Nazirliyə təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək; 3.1.36. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.37. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.38. müvafiq sahə ilə bağlı innovativ layihələrin (o cümlədən startapların) istifadə imkanını araşdırmaq və Nazirliyə təkliflər vermək;

3.1.39. fəaliyyəti ilə bağlı malların (işlərin və xidmətlərin) satın alınmasını "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirmək;

3.1.40. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ-hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə Nazirliyə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə Nazirliyə təkliflər vermək;

3.2.3. icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.4. müvafiq sahədə dövlət orqanlarına və qurumla-

rına, yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.5. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.6. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.7. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.8. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.9. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.10. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.11. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.12. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

4. Agentliyin idarə olunması

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanı İdarə Heyətidir.

4.3. İdarə Heyəti Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. İdarə Heyəti 4 (dörd) nəfərdən – Azərbaycan Respublikasının Əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən və onun 3 (üç) müavinindən ibarətdir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Agentliyin illik maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.2. Agentliyin strateji məqsəd və planlarını müəyyən etmək, inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün Nazirliyə təkliflər vermək;

4.5.3. Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.4. Agentliyin strukturunun, habelə işçilərinin sayının yuxarı həddinin və əməkhaqlarının (o cümlədən dövlət büdcəsi vəsaiti hesabına əməkhaqqına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi üçün Nazirliyə təkliflər vermək;

4.5.5. Agentliyin fəaliyyətini təşkil etmək və ona nəzarət etmək;

4.5.6. Nazirliyin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirakı barədə, həmçinin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.7. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.8. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qay-

dasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.9. Nazirliyin razılığı ilə Agentliyin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.5.10. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.11. Agentlikdə daxili audit bölməsi yaradıldığı halda, daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə bu Nizamnamənin

4.11.10-cu yarımbəndi nəzərə alınmaqla onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.5.12. Nazirliyin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.5.13. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.5.14. Agentliyin strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.15. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.16. bu Nizamnamənin 3.1.28-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.17. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.18. təsisçinin və İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyəti üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.7. İdarə Heyətinin iclası ayda azı 1 (bir) dəfə çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən digər üzvün) səsi həlledicidir.

4.8. İdarə Heyətinin üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə, yazılı məlumat verilir.

4.9. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.10. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.11. İdarə Heyətinin sədri:

4.11.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.11.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.11.3. öz təşəbbüsü ilə və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.11.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.11.5. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.11.6. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.11.7. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.11.8. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

4.11.9. Agentliyin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4.11.10. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə Nazirliklə razılaşdırmaqla qərarlar qəbul edir;

4.11.11. Agentliyin əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunma-

sına nəzarət edir;

4.11.12. Agentliyin Nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.11.13. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı işçi qruplar və komissiyalar yaradır;

4.11.14. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.11.15. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.11.16. müavinləri və struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsü aparır;

4.11.17. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.12. İdarə Heyətinin üzvləri:

4.12.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.12.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.12.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.12.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.12.5. İdarə Heyətinin qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.13. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün

adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Agentliyin nizamnamə fondu 1 000 000 (bir milyon) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız Nizamnaməsində müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Agentliyin onun idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququ vardır.

5.5. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə, müvafiq olaraq, dövlət büdcəsinə və ya yerli büdcəyə köçürülə bilər.

5.6. Agentliyin məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.

6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

7. Agentlikdə uçot və hesabat

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq maliyyə hesabatlarını tərtib və təqdim edir.

7.3. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.4. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.5. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

8. Agentliyin ləğvi və yenidən təşkili Agentliyin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi
## Vətəndaşların qəbulu şöbəsi

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) Aparatının Vətəndaşların qəbulu şöbəsi (bundan sonra - Şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində Nazirliyin Aparatının digər struktur bölmələrinin, strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bundan sonra – Nazirliyin struktur bölmələri) fəaliyyəti ilə bağlı vətəndaş qəbulu sahəsində işlərin təşkilini və tənzimlənməsini həyata keçirir.

Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"ni və Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin (bundan sonra – Nazir) əmr və sərancamlarını və bu Əsasnaməni rəhbər tutur.

Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin Aparatının struktur bölmələri, eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

https://sosial.gov.az/vetendaslarin-qebulu-shobesi

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vəzifəli şəxslərinin telefon nömrələri və elektron poçt ünvanları

### Rəhbərlik

| Vəzifəsi | Soyadı, adı, atasının adı | Telefon nömrələri | E-poçt |
|---|---|---|---|
| Nazir | Babayev Sahil Rafiq oğlu | (012) 526 01 01 (1098) | sahil.babayev@sosial.gov.az |
| Nazir müavini | Əliyev Anar Rəhim oğlu | (012) 526 01 01 (1042) | anar.r.aliyev@sosial.gov.az |
| Nazir müavini | Kərimov Anar Mehman oğlu | (012) 526 01 01 (1021) | anar.karimov@sosial.gov.az |
| Nazir müavini | Nəsirli Vüsal Zakir oğlu | (012) 526 01 01 (1051) | vusal.nasirli@sosial.gov.az |
| Nazir müavini | Abdullayev Hidayət Kaviz oğlu | (012) 526 01 01 (1093) | hidayat.abdullayev@sosial.gov.az |

## Aparat

**Aparatın rəhbəri**
**Musayev Fuad Məmməd oğlu**
(012) 526 01 01  (1092)
fuad.musayev@sosial.gov.az

**Aparat rəhbərinin müavini**
**Əbdul-Qədirov Cavid Teyrun oğlu**
(012) 526 01 01  (1087)
javid.abdulgadirov@sosial.gov.az

**Əmək siyasəti şöbəsinin müdiri**
**Heydərov Fuad Fikrət oğlu**
(012) 526 01 01 (1303)
fuad.heydarov@sosial.gov.az

**Məşğulluq siyasəti və demoqrafik inkişaf məsələləri şöbəsinin müdiri**
**Dayıyev Rəşad Hikmət oğlu**
(012) 526 01 01  (1403)
rashad.dayiyev@sosial.gov.az

**Sosial təminat siyasəti şöbəsinin müdiri**
**Hüseynov Babək Azər oğlu**
(012) 526 01 01  (1503)
babak.huseynov@sosial.gov.az

**Əlillik siyasəti şöbəsinin müdiri**
**Qocayev Sabir Nazir oğlu**
(012) 526 01 01 (1703)
sabir.gojayev@sosial.gov.az

**Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri**
**Abbasov Elnur Abbas oğlu**
(012) 526 01 01 (1603)
elnur.abbasov@sosial.gov.az

**Övladlığa götürmə siyasəti şöbəsinin müdiri**
**Ələkbərov Fərhad İslam oğlu**
(012) 526 01 01 (2903)
farhad.alakbarov@sosial.gov.az

**Strateji planlaşdırma və innovasiyalar şöbəsinin müdiri**
**Əliyev Sadiq Cabir oğlu**
(012) 526 01 01 (1204)
sadig.j.aliyev@sosial.gov.az

**Hüquq şöbəsinin müdiri**
**İsgəndərova Gülnar Firdovsi qızı**
(012) 526 01 01 (1903)
gulnar.isgandarova@sosial.gov.az

**Daxili nəzarət və audit şöbəsinin müdiri**
**İmanov Heybət Rahil oğlu**
(012) 526 01 01 (2104)
heybat.imanov@sosial.gov.az

**Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**
**Bayramova Nərmin Ernest qızı**
(012) 526 01 01 (2223)
narmin.bayramova@sosial.gov.az

**Beynəlxalq əlaqələr şöbəsinin müdiri**
**Usubova İradə Cəfər qızı**
(012) 526 01 01 (2304)
irada.usubova@sosial.gov.az

**Vətəndaşların qəbulu şöbəsinin müdiri**
**Əliyev Arif Musa oğlu**
(012) 526 01 01 (3903)
arif.aliyev@sosial.gov.az

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**
**Nəsibova Günel Rasim qızı**
(012) 526 01 01 (2426)
gunel.r.nasibova@sosial.gov.az

**İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri**
**Talıbov Fazil Həbib oğlu**
(012) 526 01 01 (2533)
fazil.talibov@sosial.gov.az

**Maliyyə və icmal büdcə şöbəsinin müdiri**
**Cəfərova Şəlalə Ziyad qızı**
(012) 526 01 01 (1104)
shalala.jafarova@sosial.gov.az

**İqtisadiyyat şöbəsinin müdiri Məmmədəliyev Mahmud Məmməd oğlu**
(012) 526 01 01 (2605)
mahmud.mammadaliyev@sosial.gov.az

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturuna daxil olan qurumlar

**Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Quliyev Vəli Eldar oğlu**
(012) 525 55 45
vali.guliyev@sosial.gov.az

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan qurumlar

**Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri Məmişov Himalay Qabil oğlu**
(012) 434 55 86
m.himalay@sosial.gov.az

**Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Abbasbəyli Mustafa Aslan oğlu**
(012) 541 98 50
mustafa.abbasbayli@sosial.gov.az

**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri**
**Bayramov Anar Məhərrəm oğlu**
(012) 568 46 25
anar.m.bayramov@sosial.gov.az

**Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri**
**Behbudov Vüqar Şəfa oğlu**
(012) 525 41 30
vugar.behbudov@sosial.gov.az

**Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin sədri**
**Məmmədov Fərid Eldəniz oğlu**
(012) 525 50 26
dost_info@sosial.gov.az

**Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın İdarə Heyətinin sədri**
**Səfərli Elnur Novruz oğlu**
(012) 525 87 48
elnur.safarli@sosial.gov.az

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan müəssisələr**

**Sosial Dəstək Mərkəzinin direktoru**
**İsrafilov İsmayıl Tofiq oğlu**
ismayil.israfilov@sosial.gov.az

**Ünvan: Bakı, AZ 1009, Salatın Əsgərova küç., 85**
**Telefon: (+994 12) 526 01 01**

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə gəlmək üçün marşrut:**

Metronun «Nizami» stansiyasının çıxışı; 52, 65, 79, 96, 33, 14 saylı avtobus marşrutları.
https://www.sosial.gov.az/unvan-v-telefonlar

## AZƏRBAYCAN RESPUBLIKASI ƏMƏK VƏ ƏHALININ SOSIAL MÜDAFIƏSI NAZIRLIYININ 142 - "ÇAĞRI MƏRKƏZI" HAQQINDA

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 142 - "Çağrı mərkəzi" nazirliyin səlahiyyətlərinə dair məsələlər, o cümlədən sosial təminat, əlilliyin müəyyən edilməsi və tibbi-sosial reabilitasiya, məşğulluğun təminatı, iş yerlərində əmək qanunvericiliyinə əməl olunması, bu sahələr üzrə elektron xidmətlərdən istifadə ilə əlaqədar vətəndaşların məlumat, sorğu və şikayət xarakterli müraciətlərinin qəbul edilərək operativ şəkildə cavablandırılması məqsədinə xidmət edir.

142 - "Çağrı mərkəzi" canlı rejimdə həftənin iş günləri saat 9.00-dan 18.00-dək vətəndaşların xidmətindədir.

Son bir ildə nazirliyin 142-"Çağrı mərkəzi"nin fəaliyyəti müasir tələblərə uyğun qurulub. Bu sahəyə məsul əməkdaşların sayı artırılmaqla, müraciətlərin qəbulu, avtomatik qeydiyyatı və aidiyyəti üzrə yönləndirilərək operativ cavablandırılması sisteminin texniki infrastrukturunun təkmilləşdirilməsi üçün müvafiq işlər aparılıb.

142 nömrəsinə zəng edərək:

sosial müdafiə ilə bağlı,

əlilliyin müəyyən edilməsi və reabilitasiya ilə bağlı,

məşğulluqla bağlı,

əmək qanunvericiliyi ilə bağlı,

elektron xidmətlərlə bağlı,

informasiya sistemindən məlumatın əldə edilməsi və avtomatlaşdırılmış pensiya təyinatı ilə bağlı nazirliyin məsul əməkdaşına sualları ünvanlamaq mümkündür.

Daxil olan hər bir müraciətin edildiyi telefon nömrəsi, müraciətin cavablandırılması prosesi avtomatik qeydə alınır. Bununla da müvafiq hallarda bu və ya digər şəxsin müraciətinin qanunvericiliyin tələblərinə uyğun səviyyədə cavablandırılmasının bir daha nəzərdən keçirilməsinə, habelə lazımi hallarda əks əlaqə yaradılmasına imkan yaranır. Zəng daxil olduğu və konkret məsələ ilə bağlı müvafiq rəqəm yığıldığı, lakin müraciət edilmədiyi hallarda da əks əlaqə yaradılaraq hər hansı müraciətin olub-olmadığı araşdırılır.

"Çağrı mərkəzi"nin proqram təminatı ayrı-ayrı qurumların informasiya ehtiyatlarına inteqrasiya olunub. Bununla da hər hansı şəxs bu və ya digər məsələ ilə əlaqədar müraciətində təqdim etdiyi fərdi məlumatların düzgünlüyünün yoxlanılması və onun qaldırdığı məsələnin ətraflı araşdırılması üçün aidiyyəti qurumların informasiya ehtiyatlarındakı məlumatlardan istifadə olunur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi tərəfindən 142-"Çağrı mərkəzi"ndə vətəndaş müraciətlərinin cavablandırılması işinin keyfiyyətinə xüsusi monitorlarda quraşdırılmış proqram təminatı vasitəsilə mütəmadi nəzarət olunur.

# HƏSSAS ƏHALI QRUPLARINDAN OLAN ŞƏXSLƏR ÜÇÜN SIĞINACAQ VƏ SOSIAL REABILITASIYA MÜƏSSISƏSI

**Müəssisə barədə ümumi məlumat**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin tabeliyində olan Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi (bundan sonra – Müəssisə) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olub, baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların, müəyyən yaşayış yeri olmayan 18 yaşından yuxarı şəxslərin, məişət zorakılığından zərər çəkmiş şəxslərin, habelə görmə qabiliyyəti məhdudluğu olan şəxslərin (bundan sonra – şəxslər) sosial reabilitasiyasının həyata keçirilməsi, onlara sosial-hüquqi, tibbi-sosial, sosial-məişət xidmətlərinin, sosial-məsləhət yardımının göstərilməsi, həmçinin müəssisəyə stasionar formada qəbul edilmiş bu kateqoriyalardan olan şəxslərin reabilitasiya müddətində müvəqqəti yaşayış yeri ilə təmin olunması üçün nəzərdə tutulmuş yarımstasionar və stasionar sosial xidmətin göstərilməsini, qaynar xətt vasitəsi ilə həssas əhali qrupundan olan şəxslər üçün sosial-məsləhət xidmətinin təşkilini, həmçinin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun digər sahələrdə xidmətlərin göstərilməsini təmin edən publik hüquqi şəxsdir.

**Ünvanı**

Müəssisə Bakı şəhəri, Sabunçu rayonu, Zabrat qəsəbəsi, Zabrat Pirşağı yolu 1-ci km. "33 A" ünvanında yerləşir.

Müəssisəyə kimlər qəbul edilirlər:

- baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan 4 yaşdan yuxarı yetkinlik yaşına çatmayan şəxslər;
- müəyyən yaşayış yeri olmayan 18 yaşdan yuxarı şəxslər;
- məişət zorakılığından zərər çəkmiş şəxslər;
- 5-29 yaşlı görmə qabiliyyəti məhdudluğu olan şəxslər.

Aşağıdakı şəxslər müəssisələrə qəbul edilmirlər:

Yoluxucu və psixi xəstəlikləri, həmçinin vaxtaşırı epileptik tutmaları olan şəxslər vəziyyətinə və disforiya hallarına meylli epilepsiya xəstəliyi olan şəxslər.

Müəssisədə xidmət müddəti

Müəssisədə şəxslərin reabilitasiya müddəti 180 (yüz səksən) gündən çox olmamaqla müəyyən edilir (reabilitasiya prosesinin nəticəsindən asılı olaraq, Sosial Xidmətlər Agentliyinin razılığı ilə müddətin uzadılması halları istisna olmaqla).

DOST Agentliyinin missiyası Azərbaycan Respublikası əhalisinin dövlət tərəfindən təklif edilən əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə Xidmət Mərkəzləri şəbəkəsi vasitəsilə müasir, operativ və elektron xidmətlərin tətbiqi ilə rahat çıxışını təmin etməkdir.

Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan, hər kəsə dost məramı ilə yanaşan, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək məqsədi ilə

yaradılan DOST layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsünün nəticəsidir. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 229 nömrəli 9 avqust 2018-ci il tarixli Fərmanı ilə yaradılıb.

Agentliyin Nizamnaməsi və Strukturu Azərbaycan Respublikası Prezidentinin 387 nömrəli 10 dekabr 2018-ci il tarixli Fərmanına əsasən təsdiq olunub. 9 may 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə ilk «DOST» mərkəzinin açılışı baş tutub.

## ƏƏSMN TƏRƏFINDƏN QƏBUL EDILƏN AKTLAR

"DOST" mərkəzlərində göstərilən xidmətlərin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aidiyyəti qurumları ilə əlaqəli şəkildə həyata keçirilməsinə dair inzibati reqlament"in təsdiq edilməsi barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının Qərarı

"Qeyri-formal məşğulluq halları ilə bağlı aşkar edilmiş məlumatlara dair hesabat forması"nın təsdiq edilməsi barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının Qərarı

«Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin göndərişi ilə işə qəbul edilənlər, o cümlədən kvota üzrə işə qəbul edilənlər və işdən çıxarılanlar haqqında aylıq hesabatın təqdim edilməsi qaydası və forması»nın təsdiq edilməsi barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının Qərarı

«İşaxtaran və işsiz şəxslərin işədüzəlməsində vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslər tərəfindən iş üçün müraciət edən və işlə təmin olunan şəxslərin sayı haqqında məlumatların təqdim edilməsi qaydasının və forması»nın təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının Qərarı

«İşaxtaran kimi qeydiyyata alınmaq üçün elektron ərizənin forması»nın təsdiq edilməsi barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının Qərarı

"Hərbi qulluqçular və xüsusi rütbəli şəxslər üzrə sığortaolunanların fərdi uçotu Qaydaları"nın təsdiq edilməsi

barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının Qərarı

Müəssisə, idarə və təşkilatlarda əməyin mühafizəsi xidməti işinin təşkilinə dair tövsiyələr

"Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın və "Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli Fərmanının icrası ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının Qərarı

Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında Dövlət Sosial Müdafiə Fondunun Qərarı

"Radiasiya təhlükəsizliyi məsələləri üzrə əməyin mühafizəsi Qaydaları"nın təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"Sosial müdafiə, tibbi-sosial ekspertiza və reabilitasiya sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"Tibbi-sosial ekspert komissiyaları tərəfindən keçiril-

miş müayinə barədə məlumatların verilməsi üzrə inzibati reqlament"in təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"İş yerinə dair arayışın verilməsi üzrə inzibati reqlament"in təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"Ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçulara hərbi xidmətlə əlaqədar əlillik səbəblərinin müəyyən olunması barədə Təlimat"ın təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələrinə birdəfəlik ödəmənin verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"Pensiya hesablanması üçün orta aylıq əmək haqqının müəyyən edilməsi qaydaları"nın təsdiqlənməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"Müəssisədə işçilərin əməyinin mühafizəsi üzrə təlimi və biliklərinin yoxlanılması haqqında Nümunəvi Əsas-

namə"nin təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"Məcburi arbitraj haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"Müəssisə, idarə və təşkilatlarda əməyin mühafizəsi xidməti işinin təşkilinə dair Tövsiyələr"in təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"Kompüter və digər elektromaqnit şüalanma yaradan aparatların istismarı zamanı təhlükəsizlik Qaydaları"nın təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"İşçilərə məzuniyyət vaxtı əlavə sosial-məişət şəraitinin yaradılması məqsədilə müavinət, yardım və digər ödənclərin verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

"Gecə vaxtı yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə görə əmək haqqının ödənilməsi barədə İzahat"ın təsdiq edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı

## “DOST” MƏRKƏZLƏRINDƏ XIDMƏT GÖSTƏRILMƏSI QAYDASI

1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 avqust tarixli 229 nömrəli Fərmanının 5.3-cü bəndinin icrası məqsədilə hazırlanmışdır və məşğulluq, əmək, sosial müdafiə və təminat sahələrində, habelə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) fəaliyyət istiqamətlərinə uyğun olaraq digər sahələrdə (bundan sonra – müvafiq sahə) Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi siyahıda göstərilən xidmətlərin (bundan sonra – xidmətlər) “DOST” mərkəzlərində (bundan sonra – mərkəz) göstərilməsi qaydasını müəyyən edir.

1.2. Mərkəzdə xidmətlər “bir pəncərə”, həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilir.

1.3. Mərkəzdə xidmətlər birbaşa (yerində) xidmət, özünəxidmət, “çağrı mərkəzi” vasitəsilə xidmət və səyyar xidmət formasında, habelə qanunazidd olmayan digər formalarda təşkil edilir.

2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. birbaşa (yerində) xidmət – vətəndaşın müraciə-

tinə əsasən, ona bilavasitə mərkəzdə xidmət göstərilməsi;

2.1.2. özünəxidmət – mərkəzdə daim internetə açıq olan kompüterlər və ya mərkəzdə quraşdırılmış xüsusi köşklər vasitəsilə vətəndaşların bütün növ elektron xidmətlərdən yararlana bilmək imkanı;

2.1.3. "çağrı mərkəzi" vasitəsilə xidmət – vətəndaşın mərkəzə gəlmədən internet və ya telefon vasitəsilə bütün xidmət növləri, tələb edilən sənədlər barədə məlumat almaq, növbə tutmaq, Nazirliyin və mərkəzin fəaliyyəti ilə bağlı təkliflər bildirmək imkanı;

2.1.4. sifarişçi – səyyar xidmət göstərilməsi üçün mərkəzə sifariş verən fiziki və ya hüquqi şəxslər;

2.1.5. səyyar xidmət – sifarişçiyə onun sifarişinə, "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə və ya bu Qaydanın 4.25-ci bəndinə uyğun olaraq mərkəzdən kənarda xidmət göstərilməsi;

2.1.6. reabilitasiya vasitələri – "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən vasitələr;

2.2. Bu Qaydada istifadə olunan digər anlayışlar "Sosial xidmət haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında və digər normativ hüquqi aktlarda müəyyən edilmiş mənaları ifadə edir.

## 3. Mərkəzdə xidmətlərin təşkilinə dair ümumi tələblər

3.1. Mərkəzdə aşağıda qeyd olunan xidmətlər göstərilir:

3.1.1. müvafiq sahədə siyahısını Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi xidmətlər, o cümlədən

funksional yardımçı xidmətlər;

3.1.2. Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (bundan sonra – Agentlik) Nizamnaməsinin 3.2.9-cu yarımbəndinə uyğun olaraq müqavilə əsasında göstərilən xidmətlər, o cümlədən səyyar xidmətlər.

3.2. Mərkəzdə xidmətlər aşağıdakı qaydada təşkil olunur:

3.2.1. xidmətlər Nazirliyin müəyyən etdiyi inzibati ərazi vahidi (vahidləri) üzrə göstərilir;

3.2.2. mərkəzdə həftənin bütün günləri (bayram günləri və ümumxalq hüzn günü istisna olmaqla) xidmət göstərilir;

3.2.3. mərkəzdə xidmətlər növbəlilik qaydasında həyata keçirilir;

3.2.4. mərkəzdə xidmətlər bir-biri ilə qarşılıqlı əlaqədə informasiya texnologiyalarından geniş istifadə etməklə həyata keçirilir;

3.2.5. mərkəzdə hərəkətin və məlumat əldə olunmasının asanlaşdırılması məqsədilə elektron lövhələr və işarələr yerləşdirilir, habelə vətəndaşa müraciət etdiyi xidmətlə bağlı məlumat və elektron növbə verilməsi üçün məlumat köşkü yaradılır;

3.2.6. mərkəzdə Nazirliyin aidiyyəti qurumlarının fəaliyyəti təmin olunur;

3.2.7. mərkəzdə "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsində nəzərdə tutulan sosial xidmətlər sosial xidmət göstərilməsi üzrə standartlara və bu sahədə digər normativ hüquqi aktlara uyğun olaraq göstərilir, bu məqsədlə yerlər və mütəxəssislər müəyyən olunur;

3.2.8. göstərilən xidmətlə bağlı müraciətə baxılma və həmin müraciətin nəticəsinin rəsmiləşdirilməsi müraciət edildiyi vaxt mümkün olduğu hallarda, qərar yerində qəbul edilərək vətəndaşa təqdim olunur.

3.3. Əlilliyi olan şəxslərin xidmətlərdən istifadəsinin maneəsiz müyəssər olması üçün mərkəzdə:

3.3.1. universal dizayn əsasında, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ağlabatan uyğunlaşma təmin edilir;

3.3.2. müvafiq inzibati ərazi vahidi üzrə fəaliyyət göstərən tibbi-sosial ekspert komissiyalarının işi təşkil olunur, onlar yerlə və mümkün tibbi ləvazimatla təchiz olunurlar;

3.3.3. əlilliyi olan şəxslərin mümkün reabilitasiya vasitələri ilə təmin edilməsinə şərait yaradılır;

3.3.4. ilkin tibbi yardım göstərilməsi üçün yer ayrılır və lazımi şərait yaradılır.

3.4. Mərkəzdə aşağıda qeyd olunan istiqamətlərdə peşə kursları və təlimlər təşkil olunur:

3.4.1. əmək və sosial qanunvericilik sahəsində təlimlər;

3.4.2. xüsusi proqramlar üzrə əlilliyi olan şəxslər, habelə işaxtaran və işsiz şəxslər üçün məşğulluq sahəsində peşə kursları.

3.5. Mərkəzdə vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün uşaq əyləncə mərkəzi, kafe və digər ictimai iaşə məntəqələri fəaliyyət göstərə bilər.

## 4. Mərkəzdə xidmət göstərilməsi qaydası

4.1. Mərkəzdə birbaşa (yerində) xidmət göstərilməsi

aşağıdakı qaydada həyata keçirilir:

4.1.1. vətəndaş mərkəzə daxil olaraq məlumat köşkündən əldə etmək istədiyi xidmətlə bağlı hansı pəncərəyə və hansı sənədlərlə müraciət etməli olduğunu öyrənir, yaxud əldə etmək istədiyi xidmətlə bağlı tələb olunan sənədlərin tamlığının yoxlanılması üçün həmin sənədləri məlumat köşkünə təqdim edir;

4.1.2. məlumat köşkündə vətəndaşın əldə etmək istədiyi xidmətlə bağlı təqdim etdiyi sənədlərin tamlığı müəyyən edildikdən sonra vətəndaşa elektron növbə verilir, yaxud əlavə olunması tələb olunan sənədlər, habelə müraciətlə bağlı ərizənin və ya digər sənədlərin (anketlərin) doldurulmasının tələb olunduğu barədə məlumat verilir;

4.1.3. vətəndaşın əldə etmək istədiyi xidmətlə bağlı ərizənin və ya digər sənədlərin (anketlərin) doldurulmasında köməyə ehtiyacı olduğu halda, o, mərkəzdə fəaliyyət göstərən könüllülərə və ya mərkəzin bu məqsəd üçün ayrılmış əməkdaşına müraciət edə biləcəyi barədə məlumatlandırılır;

4.1.4. vətəndaş ona verilmiş elektron növbəyə uyğun olaraq müraciət etməli olduğu pəncərənin qarşısında gözləyir və növbəsi çatdıqda tələb olunan sənədləri həmin pəncərəyə təqdim edir;

4.1.5. vətəndaşın müraciət etdiyi pəncərədə xidmət göstərən əməkdaş sənədlərin qanunauyğunluğunu və düzgünlüyünü yoxlayır, hər hansı bir səhv və ya çatışmazlıq olmadıqda onları qəbul edərək vətəndaşa ərizənin qəbulunu təsdiq edən qəbz verir, əks halda isə sənədlərdə olan səhv və çatışmazlıqlar göstərilməklə, onların aradan qaldırılmasına dair vətəndaşa şifahi izahat verməklə yazı-

lı bildiriş təqdim edir;

4.1.6. bu Qaydanın 3.2.8-ci yarımbəndində nəzərdə tutulan hal istisna olmaqla, vətəndaşın müraciətinə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa, habelə müvafiq sahədə yaranan münasibətləri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq, Nazirliyin aidiyyəti qurumları baxır, imtina üçün əsaslar olmadıqda, vətəndaşa qanunla müəyyən edilmiş müddətlərdə əldə etmək istədiyi xidmət göstərilir, yaxud müvafiq sənəd verilir, əks halda isə vətəndaşa qanunla nəzərdə tutulmuş müddətdə əsaslandırılmış imtina qərarı təqdim edilir;

4.1.7. vətəndaş müvafiq sahədə məlumat əldə etməklə bağlı bu Qaydanın 4.1.1–4.1.6-cı yarımbəndlərinə uyğun olaraq mərkəzə müraciət etdikdə, onun müraciəti "Vətəndaşların müraciətləri haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş qaydada cavablandırılır;

4.1.8. mərkəzdə vətəndaşın arzusu ilə informasiya sistemlərindən istifadə yolu ilə onun sosial müdafiə və təminat sahəsində hüquqları müəyyən edilir və həmin hüquqlarla bağlı müvafiq xidməti əldə etmək istəyi olduqda, ona bu Qaydada nəzərdə tutulan formada hüquqi və məsləhət xidmətləri göstərilir.

4.2. Vətəndaşa özünəxidmət formasında müvafiq sahədə xidmət göstərilməsi üçün mərkəzdə xüsusi ayrılmış kompüterlərin və ya köşklərin fasiləsiz olaraq internetə qoşulması təmin edilir.

4.3. Vətəndaş özünəxidmət formasında, siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilən elektron xidmətlərin növlərinə uyğun olaraq, Nazirliyin göstərdiyi istənilən

elektron xidmətdən yararlanmaq hüququna malikdir.

4.4. Vətəndaş özünəxidmət formasında xidmətlərdən bilavasitə mərkəzdə istifadə etmək hüququna malikdir.

4.5. "Çağrı mərkəzi" vasitəsilə vətəndaşlara, Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara uyğun olaraq, Nazirliyin fəaliyyət istiqamətləri üzrə xidmət göstərilir.

4.6. "Çağrı mərkəzi" vasitəsilə xidmət göstərilməsi barədə müraciətlər xidmət keyfiyyətinin qiymətləndirilməsi məqsədilə qeydə alınır.

4.7. Sifarişçinin bu Qaydanın 4.10-cu bəndinə uyğun olaraq verdiyi sifariş əsasında səyyar xidmətlər Agentliyin Nizamnaməsinin 3.2.9-cu yarımbəndinə uyğun olaraq mərkəz və sifarişçi arasında bağlanmış səyyar xidmət müqaviləsinə (bundan sonra – müqavilə) əsasən, bu Qaydanın 4.22–4.25-ci bəndləri nəzərə alınmaqla, ödənişli qaydada göstərilir.

4.8. Mərkəzin əməkdaşları, bu Qaydanın 4.7-ci bəndinə və aşağıdakı tələblərə riayət etməklə, sifarişçiyə səyyar xidmət göstərirlər:

4.8.1. fiziki şəxslərə onların iş və ya yaşayış yerində, habelə olduqları yerdə;

4.8.2. hüquqi şəxslərə onların olduğu yerdə;

4.8.3. səyyar xidmətlər mərkəzin iş qrafikinə uyğun həftənin bütün günləri (bayram günləri və ümumxalq hüzn günü istisna olmaqla) göstərilir. Sifarişlərin sayının çoxluğu və səyyar xidmət göstərilməsi tələb olunan ünvanların uzaq məsafədə yerləşməsi səbəbindən mərkəzin gündəlik (həftəlik) sifariş qəbuluna məhdudiyyət tətbiq etmək hüququ vardır;

4.8.4. səyyar xidmət göstərilməsi zamanı Azərbaycan

Respublikasının qanunlarında və digər normativ hüquqi aktlarında, eləcə də bu Qaydada müəyyən edilmiş sənədlərdən əlavə sənədlərin tələb edilməsi qadağandır;

4.8.5. səyyar xidmət göstərilməsi sifarişçidən tələb olunan sənədlərin təhvil alınmasını və (və ya) hazır sənədlərin ona təhvil verilməsini nəzərdə tutur.

4.9. Səyyar xidmət göstərilməsi ilə bağlı tərəflər arasında münasibətlər, tərəflərin hüquq və vəzifələri, səyyar xidmət göstərilməsinin şərtləri və müddəti, habelə xidmət üçün ödənişin məbləği, bu Qaydanın 4.22–4.25-ci bəndləri nəzərə alınmaqla, müqavilə ilə tənzimlənir.

4.10. Səyyar xidmətin göstərilməsinə dair sifariş aşağıdakı üsullardan biri ilə verilir:

4.10.1. "çağrı mərkəzi"nə zəng etməklə;

4.10.2. Agentliyin internet saytının "səyyar xidmətlər" bölməsində səyyar xidmət göstərilməsinə dair sifariş formasını doldurmaqla;

4.10.3. mərkəzə birbaşa zəng vasitəsilə müraciət etməklə.

4.11. Səyyar xidmətin göstərilməsinə dair sifariş bu Qaydanın 4.10-cu bəndinə uyğun olaraq verilmədikdə, sifariş qəbul edilmir və imtinanın səbəbi barədə sifarişçiyə məlumat bildirilir.

4.12. Sifarişçi səyyar xidmət göstərilməsinə dair sifarişində qəsdən yalan məlumat verdikdə və yaxud səyyar xidmət göstərilməsindən iki dəfə əsassız imtina etdikdə, onu məlumatlandırmaqla bu barədə xüsusi proqram təminatında qeyd aparılır. Bu hal təkrar baş verdikdə, sifarişçiyə səbəbi izah edilməklə səyyar xidmət göstərilməsindən imtina olunur.

4.13. Səyyar xidmət göstərilməsinə dair sifarişin verilmə üsulundan asılı olmayaraq, "çağrı mərkəzi"nin operatoru sifarişçi ilə əlaqə saxlayır, sifarişçiyə müvafiq xidmətin göstərilməsi üçün əsas şərtləri (müqavilə üzrə ödənişin məbləği, icra müddəti, tələb olunan sənədlər və xidmətlə bağlı digər mühüm şərtləri) izah edir, xidmətin göstərilməsi üçün tələb olunan sənədlərin sifarişçidə mövcudluğunu öyrənir.

4.14. Sifarişçinin əldə etmək istədiyi xidmətlə bağlı sifarişinin qəbulu üçün mərkəzdə göstərilən digər xidmət göstərilməsi də tələb olunduqda, ona həmin xidmət də təklif edilir.

4.15. Sifarişçi səyyar xidmət göstərilməsi şərtləri ilə razılaşdıqda və xidmət göstərilməsi üçün tələb olunan sənədlərinin mövcudluğunu bildirdikdə, ona dair məlumatlar (soyadı, adı, atasının adı, ünvanı, əlaqə nömrələri, xidmətin göstərilmə yeri və vaxtı, fərdi identifikasiya nömrəsi) öyrənilərək qeyd edilir, operator xüsusi proqram təminatı vasitəsilə xidmətin göstərilməsi üçün uyğun olan vaxtı (tarix və saat) müəyyən edir və sifarişçi ilə razılaşdırdıqdan sonra sifarişi qəbul edir və təsdiqləyir.

4.16. Sifarişçinin sifarişi üzrə səyyar xidmət göstərilməsi mümkün olmadıqda, mərkəz bu barədə, səbəbi göstərilməklə, sifarişçini məlumatlandırır.

4.17. Aşağıdakı hallarda səyyar xidmət göstərilməsindən imtina edilir:

4.17.1. sifarişçinin qəsdən yalan məlumat verdiyi aşkar edildikdə;

4.17.2. sifarişçi 2 (iki) dəfə əsassız olaraq səyyar xidmətlə bağlı verdiyi sifarişdən imtina etdikdə;

4.17.3. sifarişçinin əldə etmək istədiyi xidmətin xüsusiyyətindən asılı olaraq, səyyar formada göstərilməsi mümkün olmadıqda.

4.18. Səyyar xidmət göstərilməsinə dair sifarişi operator qəbul edərək təsdiqlədikdən sonra həmin sifariş mərkəzləşdirilmiş qaydada xüsusi proqram təminatı vasitəsilə mərkəzə ötürülür.

4.19. Hər iş gününün sonunda mərkəzə daxil olmuş sifarişlər əsasında növbəti iş günü üçün səyyar xidmətlərin göstərilməsi qrafiki hazırlanaraq təsdiq edilir və səyyar xidmət göstərəcək əməkdaşlar müəyyən edilir.

4.20. Mərkəzin səyyar xidmət göstərəcək əməkdaşı sifarişdə qeyd olunan ünvana getməzdən əvvəl sifarişin qüvvədə olması dəqiqləşdirilir.

4.21. Səyyar xidmət göstərəcək əməkdaş sifariş üzrə ünvana gələrək sifarişçi ilə sifarişin verilməsi zamanı razılaşdırılmış şərtlərə uyğun olaraq müqaviləni imzaladıqdan və bu Qaydanın 5-ci hissəsinə uyğun olaraq ödənişi qəbul edərək ödəniş qəbzini sifarişçiyə təqdim etdikdən sonra sifarişçiyə müvafiq xidməti göstərir.

4.22. Agentliyin Nizamnaməsinin 3.2.9-cu yarımbəndinə uyğun olaraq müqavilə əsasında göstərilən xidmətlər, o cümlədən səyyar xidmətlər çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətlərin zəmanət verilmiş həcmində ödənişsiz əsaslarla göstərilir.

4.23. "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə uyğun olaraq səyyar sosial xidmətlər Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada göstərilir.

4.24. Sosial xidmətin həcmi zəmanət verilmiş həcmi keçdikdə və sosial xidmətin növü zəmanət verilmiş xidmət növünə aid olmadıqda, xidmətlərin göstərilməsinə görə ödənişin məbləğini Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

4.25. Mərkəz Agentliyin Nizamnaməsinin 3.1.16-cı yarımbəndində nəzərdə tutulmuş layihə və proqramlar çərçivəsində, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərə Agentliyin müəyyən elədiyi inzibati ərazi vahidlərində ödənişsiz əsaslarla səyyar xidmətlər göstərmək hüququna malikdir.

4.26. Mərkəz, bu Qaydanın 4.25-ci bəndinə uyğun olaraq, xüsusi nəqliyyat və digər səyyar xidmət vasitələrindən istifadə edərək aşağıdakı tələblərə riayət etməklə səyyar xidmət göstərir:

4.26.1. səyyar xidmətin həyata keçiriləcəyi yer (inzibati ərazi vahidi) və vaxt (başlama və bitmə tarixi) əvvəlcədən müəyyənləşdirilir və xidmətin göstərilməsinə başlamazdan azı 3 (üç) gün əvvəl Agentliyin rəsmi internet saytı, habelə kütləvi informasiya vasitələri ilə ictimaiyyətə açıqlanır;

4.26.2. müvafiq avadanlıqla təchiz edilmiş xüsusi nəqliyyat vasitələri səyyar xidmətin həyata keçiriləcəyi inzibati ərazi vahidində səyyar xidmətin bilavasitə göstəriləcəyi yerdə yerləşdirilir.

4.27. Bu Qaydanın 4.25-ci bəndində nəzərdə tutulmuş səyyar xidmətin göstərilməsi üçün sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxs şəxsiyyətini təsdiq edən sənədlə həmin xidmətin göstəriləcəyi yerdə quraşdırılmış elektron növbə sistemi vasitəsilə qeydiyyatdan keçir (növbə götü-

rür), xüsusi nəqliyyat və digər səyyar xidmət vasitələrində yerləşdirilmiş xidmət yerinə yaxınlaşır və zəruri sənədləri Mərkəzin nümayəndəsinə təqdim edir.

4.28. Mərkəzin nümayəndəsi təqdim edilmiş sənədlərin qanunauyğunluğunu və tamlığını yoxladıqdan sonra müraciət edən şəxsə xidmət göstərir. Təqdim olunmuş sənədlərdə səhv və ya çatışmazlıq aşkar edildikdə xidmətin göstərilməsindən imtina olunur və müraciət edən şəxsə onların aradan qaldırılmasına dair məlumat verilir.

5. Xidmətlərə görə ödənişlər

5.1. Bu Qaydada nəzərdə tutulan xidmətlər üçün aşağıdakı ödənişlər tutulur:

5.1.1. funksional yardımçı xidmətlərin göstərilməsi ilə əlaqədar qanunla müəyyən edilən dövlət rüsumları;

5.1.2. bu Qaydanın 3.1.2-ci yarımbəndinə uyğun olaraq müqavilədə nəzərdə tutulan ödəniş.

5.2. Bu Qaydanın 5.1-ci bəndində göstərilən ödənişlər sənədlər təhvil verilərkən, xidmətlərin göstərilməsi formasından asılı olaraq, aşağıdakı üsullardan biri ilə ödənilir:

5.2.1. mərkəzdə fəaliyyət göstərən banklarda ödəniş etməklə;

5.2.2. POS-terminallar vasitəsilə;

5.2.3. ödəniş sistemləri vasitəsilə (on-line).

## DOST MƏRKƏZLƏRİ

### 1 saylı Bakı DOST Mərkəzi

9 may 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə 1 saylı Bakı DOST Mərkəzinin açılışı olub.

1 saylı Bakı DOST Mərkəzi gün ərzində 400-dən çox vətəndaş qəbul edir.  Mərkəzdə il ərzində 100 mindən artıq vətəndaşa məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində, o cümlədən vahid əlaqələndirmə mərkəzi üzrə 154 xidmət göstərilir. Mərkəzdə "Könüllü DOST" proqramı üzrə 50 nəfərədək könüllü fəaliyyət göstərir. 1 saylı Bakı DOST Mərkəzi vətəndaşların Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə bütün xidmətlərdən "bir pəncərə" prinsipi ilə faydalanmasına imkan verir.

Ünvan: Bakı şəhəri, Yasamal rayonu, İ. Qutqaşınlı küçəsi, 86

İş qrafiki: Bazar ertəsi - cümə: 09:00-18:00

Telefon: Çağrı Mərkəzi 142

### 2 saylı Bakı DOST Mərkəzi

24 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 2 saylı Bakı DOST Mərkəzinin açılışı olub.

2 saylı Bakı DOST Mərkəzi gün ərzində 100-dən çox vətəndaş qəbul edir. Bakı rayonlarının sakinlərinə xidmət

edən mərkəzdə il ərzində 30-35 min vətəndaşa “bir pəncərə” prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində, o cümlədən vahid əlaqələndirmə mərkəzi üzrə 154 xidmət göstərilir. Mərkəzdə “Könüllü DOST” proqramı üzrə 40 nəfərədək könüllü fəaliyyət göstərir.

Ünvan: Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, A. İldırım küçəsi, 30 b
İş qrafiki: Bazar ertəsi - cümə: 09:00-18:00
Telefon: Çağrı Mərkəzi 142

## 3 saylı Bakı DOST Mərkəzi

3 saylı Bakı DOST Mərkəzinin açılışı 19 may 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə baş tutub.

Gün ərzində 3 saylı Bakı DOST Mərkəzi 400-ə yaxın vətəndaş qəbul edir. Paytaxt sakinlərinə xidmət edən mərkəzdə il ərzində 120-130 min vətəndaşa “bir pəncərə” prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində, o cümlədən vahid əlaqələndirmə mərkəzi üzrə 154 xidmət göstərilir.

Mərkəzdə “Könüllü DOST” proqramı üzrə 50 nəfərədək könüllü fəaliyyət göstərir.

Ünvan: Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 183 b.
İş qrafiki: Bazar ertəsi - cümə: 09:00-18:00
Telefon: Çağrı Mərkəzi 142

## 4 saylı Bakı DOST Mərkəzi

4 saylı Bakı DOST Mərkəzi 30 mart 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə açılışı olub.

Gün ərzində təxminən 800 nəfər vətəndaş qəbul edən 4 saylı Bakı DOST Mərkəzində paytaxt sakinlərinə "bir pəncərə" prinsipi ilə 154 xidmət göstərilir. Mərkəzdə 230 nəfərdən çox əməkdaş, habelə "Könüllü DOST" proqramı üzrə 50 nəfərədək könüllü fəaliyyət göstərir.

4 saylı Bakı DOST Mərkəzinin binasında fəaliyyət göstərən Çağrı Mərkəzi 142 ölkə üzrə gündəlik 5 minədək zəng qəbuluna şərait yaradır. "ART School" - "İnklüziv İncəsənət Məktəbi" isə ildə orta hesabla 150-200 əlilliyi olan şəxsin təlimlərdən keçməsinə imkan verir.

Ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Ziya Bünyadov 3103
İş qrafiki: Bazar ertəsi - cümə: 09:00-18:00
Telefon: Çağrı Mərkəzi 142

## 5 saylı Bakı DOST Mərkəzi

28 dekabr 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 5 saylı Bakı DOST Mərkəzinin açılışı olub.

Gün ərzində təxminən 650-700 nəfər vətəndaş qəbul edəcək 5 saylı Bakı DOST Mərkəzində paytaxt sakinlərinə "bir pəncərə" prinsipi ilə 154 xidmət göstərilir. Mərkəzdə 120 nəfərdən çox əməkdaş, habelə "Könüllü DOST" proqramı üzrə 50 nəfərədək könüllü fəaliyyət göstərir.

Vətəndaşlar ilk dəfə 5 saylı Bakı DOST Mərkəzində mediasiya xidmətlərindən yararlana bilirlər. Burada həmçinin işçilər üçün təlim mərkəzi, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin təlim otaqları və müasir kitabxana yaradılıb.

Ünvan: Bakı şəhəri, Xətai rayonu, Mehdi Mehdizadə 31
İş qrafiki: Bazar ertəsi - cümə: 09:00-18:00
Telefon: Çağrı Mərkəzi 142

**Abşeron DOST Mərkəzi**

14 iyul 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Abşeron DOST mərkəzinin açılışı olub.

Abşeron DOST Mərkəzi gün ərzində təxminən 400 vətəndaş qəbul edir. Bu prosesi 120 nəfərə yaxın işçi heyəti və 50 nəfərədək könüllü həyata keçirir. Abşeron rayon sakinlərinə xidmət edən mərkəzdə il ərzində 120 minə yaxın vətəndaşa məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin sosial-hüquqi, sosial-məişət xidmətləri, sosial-pedaqoji xidmət olmaqla, ümumilikdə 154 adda xidmət göstərilir.

Ünvan: Abşeron rayonu, Xırdalan şəhəri, Bakı-Sumqayıt şossesi 7-ci km, «Abşeron Gənclər Şəhərciyi» yaşayış kompleksi, bina 27
İş qrafiki: Bazar ertəsi - cümə: 09:00-18:00
Telefon: Çağrı Mərkəzi 142
https://dost.gov.az/dost-centers

**Mündəricat**

Azərbaycanda həssas əhali qruplarının sosial müdafiəsi və dəstək tədbirləri ........ 3

Azərbaycan Respublikasının Nazirlər Kabineti ........ 16

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi ........ 19

Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi ........ 21

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Vətəndaşların qəbulu şöbəsi ........ 38

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vəzifəli şəxslərinin telefon nömrələri və elektron poçt ünvanları ........ 39

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 142 - “Çağrı mərkəzi” haqqında ........ 46

Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi ........ 48

ƏƏSMN tərəfindən qəbul edilən aktlar ........ 51

“DOST” mərkəzlərində xidmət göstərilməsi Qaydası 55

DOST Mərkəzləri ........ 67

# Azərbaycanda həssas əhali qruplarının sosial müdafiəsi

*(Azərbaycan dilində)*

İMZA
NƏŞRLƏR EVİ

**Direktor:** **Səbuhi Aslan**

**Dizayner:** **Veys Əliyev**

**Texniki redaktor:** **Nihad Əbilli**

Çapa imzalanmışdır: 15.05.2023
Ofset çapı. Əla növ kağız
Tiraj: 200
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87,
(050) 263-16-16; (055) 263-16-17
email: imza_nesrler_evi@mail.ru